

# Özümüzü qorumaqla, bütün xalqımızı qoruyuruq...

***Hazırda xalqımız tarixi günlər yaşayır. Hamının fikri ön cəbhədən gələn xəbərlərə köklənib. Azərbaycan Prezidentinin azad edilən hər kəndlə, rayon, qəsəbə ilə bağlı sevindirici məlumatları bizi ruhlandırır. Qarşıdakı düşmənə diqqət artdığından, ikinci – can alan "gizli düşməni" unutmuşuq. Buna görə də koronavirusa yoluxma sayı inanılmaz kritik həddə çatıb. Operativ qərargahın oktyabrın 22-də yaydığı məlumata görə, Azərbaycanda həmin gün koronavirus infeksiyasına 825 yeni yoluxma faktı qeydə alınıb, 171 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Son sutkada 6 nəfər COVID-19-dan vəfat edib.***

Məlumata görə, hazırkı dövrədək ölkəmizdə 47 min 418 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 40 min 619 nəfər müalicə olunaraq sağalıb, 648 nəfər vəfat edib. Aktiv xəstə sayı 6 151 nəfərdir. Məlumatda, həmçinin bildirilir ki, ötən müddət ərzində 1 milyon 260 min 193 test aparılıb. Bugünkü test sayı isə 9 457-dir. Yoluxmanın çox olduğunu hesab etdiyimiz ötən aylarda aparılan test sayına nisbətən, hər 16 nəfərdən birində virus aşkarlanırdısa, indi test edilən hər 11 nəfərdən birinin cavabı pozitivdir. İnsanlar bir az yox, çox ciddi düşünməlidirlər. Özümüzü biləbilə oda atmaq lazım deyil.

Sirr deyil ki, son dönəmlərdə COVID --19-a yoluxanların sayında artım müşahidə olunurdu. Son iki həftədə isə yoluxanların sayı avqust ayı ilə müqayisədə də çox oldu. Bu bizi ciddi şəkildə narahat etməlidir. Bunun səbəbi kimi yoluxanların sayının 100-ə düşdüyü vaxtlarda insanların rahatlaşması, "artıq bəla bizdən sovuşdu", "koronavirusa əlvida dedik" – kimi fikirləri göstərə bilərik.

Həkim-infeksionist Natiq Əliyev bu barədə öz fikirlərini belə bildirib: "Mart ayında COVID --19-la bağlı hansı çətinlikləri hiss edirdiksə, indi də nəticələr elədir. Özümüzü eyni yükün altında hiss edirik və bu vəziyyət bizi ciddi şəkildə narahat edir. Biz ən çox ön cəbhəni düşünərək özümüzü qorumalıyıq. Bu bəzən insanlarda qıcıq yaradır. Sosial məsafə, izolyasiya qaydalarına əməl etmək istəmirlər. Düşünmürlər ki, ancaq bu yolla bu mənfur xəstəliyi uzaqlaşdırmaq olar. Öncə insanların sağlığını düşünməliyik. Ön cəbhəyə dəstək məqsədilə qorunmalıyıq və sağlamlığa ehtiyac var. Avqust ayında bildirirdik, az qala hər gün məlumat yayırdıq ki, qarşıda payız-qış fəsli gəlir və daha ehtiyatlı olmaq lazımdır, çünki bu dönəmdə infeksiyalar çoxalır. Deyirdik ki, özümüzü koronavirusdan əlavə digər xəstəliklərdən də qorumalıyıq. Çünki başqa xəstəliklərin olması koronavirusu daha da ağırlaşdırır. Sağalma müddətinə də təsir edir".

Koronaviruslu soydaşlarımızın müalicə aldığı xəstəxanada xəstələrin müalicəsi ilə məşğul olan həkim, həmçinin bildirir ki, hazırda xəstəxanaya 1150 xəstə daxil olub ki, onlardan 70 nəfəri stasionar bölmədə yatır və aralarında sağalıb gedənlər də var. "Sosial məsafə və gigiyena qaydalarına əməl etməklə, virusun qarşısını almaq lazımdır. Həkim olaraq hər zaman insanların sağlamlığını düşünürəm. Ön cəbhədə də həkimlərə ehtiyac var və biz özümüzü qorumalıyıq ki, burada daha çox həkimə ehtiyac olmasın. Hazırda yetərincə personalımız olsa da, daha pis vəziyyətin yaranmaması üçün qaydalara əməl etməliyik".

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəsi Hande Harmancı deyib ki, yoluxma saylarının artımının müxtəlif səbəbləri var. Belə ki, qış ayları yaxınlaşdıqca, COVID --19, eləcə də digər respirator virus infeksiyaları və mikroblar daha çox yayılır. Buna səbəb insanların qapalı məkanlarda daha çox vaxt keçirməsidir. Həmçinin hazırda insanlarda pandemik yorğunluq müşahidə olunur. Çünki fevral ayından bəri insanlara müəyyən qaydalara əməl etmək, diqqətli olmaq tövsiyə edilir. İnsanlarda həssaslıq azalıb. Bu hal yalnız Azərbaycanda deyil, bütün dünyada yaşanır. Onu da qeyd etmək lazımdır ki, ÜST pandemik yorğunluqla necə mübarizə aparılmasına dair yeni tövsiyələr yayımlayıb. İnsanlar bu tövsiyələrə əməl etməlidirlər.

Son zamanlar Azərbaycanda yoluxma sayında qeydə alınan sıçrayış diqqəti cəlb edir. Belə getsə, xəstələrin daha da artacağı gözlənilir və bu, qaçılmaz olacaq. Çünki insanların bir yerə toplanmasına səbəb olan günlər yaşayırıq. Belə vaxtlarda isə koronavirusu düşünmürük. İnsanlara belə çətin günlərdə bu mesajları ünvanlamaq asan deyil. Lakin özümüz, sevdiklərimiz naminə xəstəliyin daha da yayılmasının qarşısını almaq üçün diqqətli olmalıyıq.

Hazırda Avropada da yoluxma sayı sürətlə artır və bu, davam edəcək. Təxminlərə görə, qışda yoluxma sayları yay aylarında qeydə alınan piki ötəcək. Avropada COVID --19 infeksiyasının yeni halları sürətlə artsa da, bugünkü vəziyyət yazda olduğundan çox fərqlidir. BMT-nin xəbərlər xidmətinin məlumatına əsasən deyə bilərik ki, ÜST-ün Avropa Bürosunun direktoru Hans Kluge epidemioloji vəziyyəti təhlil edərək, bölgənin bir çox ölkəsində məhdudiyyətlərin tətbiq edilməsini bəyənib, vəziyyətin pisləşməməsi və daha sərt addımların atılmaması məqsədilə onlara ciddi riayət edilməsinə çağırıb.

Qeyd etməliyik ki, insanların təmasının qarşısının alınmasına nə qədər çalışsaq da, bu mümkün olmur. Hazırda Səfərbərlik Xidmətinə yola salınanların sayı artıb. Onların bir yerdə, yaxın təmasda olmamaları mümkünsüzdür. Amma Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Pərviz Abubəkirov deyib ki, Səfərbərlik Xidmətinə yola salınan hər bir əsgər COVID --19 testindən keçirilir. Cavablar mənfi olduqdan sonra onlara yola düşməyə icazə verilir. O, həmçinin bildirib ki, cəbhəyə yollanan şəxslər arasında COVID --19-un yayılmasının qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlər görülüb. "Çağırışçılar, ön cəbhəyə gedən hər bir kəs sağlam olmalıdır. Çünki bu, çox ciddi məsələdir. Odur ki, bu istiqamətdə nazirlik tərəfindən yoxlamalar gücləndirilib". O, həmçinin onu da qeyd edib ki, hər ana öz övladını yola salarkən bağrına basmaq, qucaqlamaq istəyir, lakin mümkün qədər bu normalara riayət etmək lazımdır.

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin şöbə müdiri Səbinə Babazadə isə gigiyenaya son dərəcə əməl etməyi vacib hesab edir. O deyib ki, hətta, tibbi maska taxılmazdan əvvəl əllər ya yuyulmalıdır, ya da dezinfeksiya edilməlidir. Maska üzə taxılan zaman təmiz olmalıdır. Bildirib ki, gün ərzində tibbi maskaların iki saatdan bir dəyişdirilməsi tövsiyə edilir: "İki saatdan çox saxlanılan maskalar özü artıq infeksiya mənbəyi ola bilir. Bəlkə COVID --19 olmasa da, digər infeksiyalara yoluxma riski yaranar. İstifadə olunan maskaları mütləq şəkildə qapalı zibil qutusuna atmaq lazımdır".

Bəzi qoruyucu maskaların 8 saat istifadə edilə biləcəyini deyən S.Babazadə bu tip respirator vasitələrin effektinin yaxşı olduğunu deyir: "İşə gedən şəxslər üçün 8 saatlıq istifadə edilən respirator maskalar əlverişlidir. Biz həkimlərimizi də sırf o maskalarla qoruyuruq. COVID --19 xəstələri ilə ünsiyyətdə olan həkimlər "N-95" tipli maskalardan istifadə edirlər. Tibbi maskalardan düzgün istifadə edən və virusa yoluxmaqdan özünü qoruyan insanlar həkimlərimizin də yükünü azaldır. Bu gün həkimlərimizə cəbhə bölgəsində də ehtiyac var. Onlar hərbçilərimizə dəstək olmaq üçün lazımdırlar".

Əksəriyyətimizin ailəsindən cəbhədə olan var. Biz burada qorunmayıb özümüzə həkim nəzarəti ayırmaqla, bəlkə elə, cəbhədən gələn bir yaralıya diqqəti azaldırıq. Hamımızın borcu cəbhədəkiləri qorumaqdır ki, onlar da sağlam şəkildə Vətən müharibəsində torpaqlarımızı işğaldan azad etsinlər. Buna görə bu 825 rəqəminə bir də baxıb, bunun sonradan nələrə səbəb ola biləcəyini düşünək. Qorunaq, qoruyaq!

*Zərifə BƏŞİRQIZI,*
*"Xalq qəzeti"*

Xalq qəzeti 2020.- 23 oktyabr.- S.8.